

Milli azadlıqdan şirin nemət yoxdur!

# DAVOS Forumu: Azərbaycan Prezidenti diqqət mərkəzindədir

Bax səh. 2

# İlham Əliyev Şəhidlərin xatirəsini yad edib



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
22 yanvar 2025-ci il, çərşənbə
№ 011 (6839)
Qiyməti 60 qəpik

# Birləşmiş Ştatlar ilə tərəfdaşlığımızı davam etdirmək, Sizinlə bu istiqamətlərdə sıx işləmək niyyətindəyik



# Azərbaycan Prezidenti Donald Trampı təbrik edib




## Mehriban Əliyeva Türkiyədə baş verən yanğınla bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Türkiyədə baş verən yanğınla bağlı rəsmi sosial şəbəkə səhifələrində paylaşım Paylaşımda deyilir: “Başın sağ olsun, Türkiyə! Yanğın nəticəsində həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara güc və səbir diləyirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrı xalqlarımızı bütün bəlalardan və bədbəxtliklərdən qorusun!”.

## Tramp Ağ evə qayıtdı...

Dünya ictimaiyyətinin aylardır gözlədiyi an çatdı - yanvarın 20-də ABŞ-ın 47-ci Prezidenti seçilmiş Donald Tramp Kapitolidə and içdi. Yüzlərlə qonağın və televiziya ekranlarından inauqurasiyanı izləyən milyonlarla izləyicilərin qarşısında çıxış edən ABŞ-ın yeni prezidenti Donald Tramp ölkəsinin dünəni, bü günü və sabahı ilə bağlı fikir və proqramlarını diqqətə çatdırdı.

**Yeni eranın başlanğıcı...**

Yeni prezident Tramp...

Bax səh. 6



Bax səh. 3

## YAP nümayəndələri Şəhidlər Xiyabanını ziyarət ediblər

## Siyasi partiyalar üçün ciddi sınaq

Bax səh. 3

## Tramp radikal və korrupsioner quruluşu hədəfə aldı...

Bax səh. 6

## Sərxoş mühafizəçi...

Bax səh. 6

## Musiqinin özü bir tərbiyədir

Bax səh. 8

## Paris Olimpiadasında medal rəzaləti

Ötən ilin yayında Fransanın paytaxtında baş tutan 33-cü Yay Olimpiya Oyunlarının başa çatmasından aylar ötsə də, dünyanın bir nömrəli idman bayramı ilə bağlı, təəssüf ki, kədərli olan müzakirələr hələ də bitməyib. Bu günlərdə Makron iqtidarının Olimpiada rəzaləti ilə bağlı faktlar yenidən gündəmi zəbt edib. Söhbət idmançıların təltif olunduqları medalların keyfiyyətindən, daha doğrusu, keyfiyyətsizliyindən gedir.

Parisdə keçirilən 33-cü Yay Olimpiya Oyunlarının büdcəsi 11 milyard avroya bərabərdir. Oyunları keçirmək üçün Fransanın namizədliyi irəli sürüldükdə bu məbləğ 6,2 milyard avro idi. Planlaşdırılmayan xərclərin dəyəri iki dəfəyə qədər artıq olub. Dövlət maliyyələşdirməsinin payı elan edilən 2,3 milyard avrodan 4,6 milyard avroya yüksəlib. Paris Olimpiadasının açılış mərasiminə 122 milyon avro vəsait xərclənib.

Göründüyü kimi, Makronun komandasının Olimpiada büdcəsi kifayət qədər iddialı olub. Ancaq buna baxmayaraq, ortaya tamamilə zay məhsul çıxarılıb. Yelisey Sarayının “Paris 2024”-ün qara üzünü gizlətməyə çalışmasına rəğmən, çatışmazlıqlar həddindən artıq çox olub. Açılış ərəfəsində artıq hamıya bəlli idi ki, Olimpiada ilə bağlı təhlükəsizlik tədbirləri lazımi səviyyədə deyil. Parisə Fransanın regionlarından və Aİ ölkələrindən çoxsaylı polis qüvvələri cəlb edilməsinə baxmayaraq, şəhərdə terror risklərinin kifayət qədər böyük olması...

Bax səh. 7

## Fransa Ermənistanı silahlandırmaqla...

Dünyada yeni siyasi-iqtisadi nizamın formalaşdığı dövrdə Fransa özünün Cənubi Qafqaza yönəlik destruktiv siyasətindən əl çəkmək istəmir. Regionda sülhlə bağlı impulsların gücləndiyi bir zamanda, əbədi sabitliyi təmin edəcək sənədin son ştrixlərinin razılaşdırıldığı bir dövrdə Paris özünün imperialist ənənəsinə sadiq qalaraq regionla bağlı məkrli planlarını davam etdirir. Başqa sözlə, Fransa son iki ildə Ermənistanın müxtəlif yollarla silahlandırılmasını təmin edən təhlükəli siyasətinə son vermir - bu ölkənin Ermənistanın hərbi-müdafiə və təhlükəsizliyində “rolunu” artırması da bunu deməyə əsas verir.

Dünyada işləri “düz getməyən”, onilliklər boyu mümstəmləkəçilik siyasəti yürütdüyü Qərbi - Mərkəzi Afrikadan sıxışdırılıb...

Bax səh. 7

# Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib

Prezident İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib. Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Qanlı 20 Yanvar faciəsindən 35 il keçir. Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olan 20 Yanvar hadisələri milli müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. Keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 35 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanın açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciə, günahsız insanların həlak olması ilə nəticələndi. Sanki bunları görməyən Azərbaycanın ovaxtkı səriştəsiz rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı.



Həmin vaxt Moskvada yaşayan Ümummilli Liderimiz Heydər Əliyev həyatını təhlükə altında qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın rəhbərliyinə qayıtdıqdan sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Bu gün Azərbaycan xalqı 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin də sosial müdafiəsi, pensiya təminatı hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb.

Əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş bütün şəhidlərin ruhları bu gün şaddır. Çünki 2020-ci ildə Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad etdi. 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri sürətlə davam edir, "Böyük Qayıdış" Proqramı uğurla icra olunur. Bunun nəticəsidir ki, işğaldan azad olunmuş ərazilərdə hazırda ümumilikdə 30 mindən çox insan yaşayır.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının qanının yerdə qalmadığının sübutudur. Buna görə də xalqımız 20 Yanvar faciəsinin 35-ci ildönümünü də xüsusi qürur hissi ilə qeyd edir.

# Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa

**Hörmətli cənab Prezident,**

Amerika Birləşmiş Ştatlarının 47-ci Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Amerika xalqının rifahı naminə qarşıdakı məsul ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. Əminəm ki, Sizin gələcək fəaliyyətiniz dünyada sülhün təşviqində, beynəlxalq təhlükəsizliyin gücləndirilməsində önəmli rol oynayacaqdır.

Azərbaycan ilə Birləşmiş Ştatlar özlərinin milli təhlükəsizlik maraqları əsasında qlobal çağırışlara və təhdidlərə, beynəlxalq terrorizmə və onun müxtəlif təzahürlərinə qarşı mübarizədə daim sıx əməkdaşlıq etmişlər.

ABŞ-nin müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən, enerji sahəsində xoş ənənələrə əsaslanan və möhkəm təməllər üzərində qurulmuş əməkdaşlığımızı yüksək qiymətləndirirəm, ölkəmizin enerji siyasətinə Sizin verdiyiniz daimi dəstəyi xüsusi vurğulamaq istərdim.

Biz həm ənənəvi, həm də yeni əməkdaşlıq sahələri üzrə Birləşmiş Ştatlar ilə fəal və səmərəli birgə işimizi, qarşılıqlı inam və etimada əsaslanan tərəfdaşlığımızı bundan sonra da qətiyyətlə davam etdirmək və Sizinlə bu istiqamətlərdə sıx işləmək niyyətindəyik.

İnanıram ki, Sizin yeni prezidentliyiniz dövründə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənəcək və yeni məzmun kəsb edəcəkdir.

Bir daha Sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

***Hörmətlə,***
***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 yanvar 2025-ci il***

# Prezident Ərdoğana başsağlığı verib

**Hörmətli cənab Prezident, əziz Qardaşım.**

Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması xəbəri bizi olduqca sarsıtdı. Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

**Allah rəhmət eləsin!**

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezident,***
***Bakı şəhəri, 21 yanvar 2025-ci il***

# Prezident İlham Əliyev Davosda bir sıra görüşlər keçirib














Prezident İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 20-də İsveçrə Konfederasiyasına səfərə gəlib. Səfərin ilk günləri maraqlı və yaddaqalan olub. Bir çox ölkənin dövlət başçısı və iri şirkətlərin rəhbərlərinin müraciətləri əsasında Azərbaycan Prezidenti ilə görüşləri keçirilib.

Prezident İlham Əliyev Davosda qarşı tərəfin müraciəti əsasında Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb. Almaniya Kansleri təyyarə qəzası ilə əlaqədar araşdırmaların gedişi ilə maraqlanıb. Görüşdə Azərbaycan Prezidenti ilə Olaf Şoltsun əvvəlki görüşləri və aparılmış müzakirələr məmnunluqla xatırlanıb. Söhbət zamanı ikitərəfli münasibətlərə, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf etdirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. Kansler Almaniyanın Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində səyləri dəstəklədiyini bildirib.

Prezident İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşüb. Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub. Söhbət zamanı iqtisadi-ticari sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirilib, hökumətlərarası birgə komissiyanın işi yüksək qiymətləndirilib. Azərbaycanlılarla yəhudilər arasında ənənəvi, tarixi dostluq münasibətlərinin mövcud olduğu vurğulanıb, ölkəmizdə digər icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasının nümayəndələrinin də sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma mühitində yaşamaları üçün hərtərəfli şəraitin yaradıldığı məmnunluqla qeyd edilib.

***

Prezident İlham Əliyevin qarşı tərəfin müraciəti əsasında digər görüşü Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə keçirilib. Edqars Rinkeviçs dövlətimizin başçısı ilə bundan əvvəlki görüşlərini məmnunluqla xatırladıb, görüşün ikitərəfli əlaqələrin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğulayıb. Edqars Rinkeviçs təyyarə qəzasında həlak olanlarla bağlı Azərbaycan Prezidentinə başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib, öz növbəsində bugünkü görüşün əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmini qeyd edib.

***

Dövlətimizin başçısı yanvarın 21-də Davosda İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə də görüşüb. COP29-da Azərbaycana səfərini məmnunluqla xatırlayan Əbdüllətif Camal Rəşid bu mühüm tədbirin uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. İraq Prezidenti, eyni zamanda, təyyarə qəzası ilə əlaqədar bir daha başsağlığını ifadə edib. Prezident İlham Əliyev başsağlığına görə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycanla İraq arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, birbaşa təyyarə reyslərinin təşkili və hökumətlərarası komissiyanın fəaliyyəti ilə əlaqədar məsələlərə toxunulub. Həmçinin Yaxın Şərqdəki vəziyyət müzakirə edildi, regionda sülhün və sabitliyin bərqərar olunmasının vacibliyi bir daha vurğulanıb.

***

Daha bir görüş İraq Kürdüstan regionunun Baş naziri Məsrur Bərzani ilə keçirilib. Məsrur Bərzani İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzaninin salamlarını dövlətimizin başçısına çatdırıb. Məsrur Bərzani vurğulayıb ki, İraq Kürdüstan Regionunun başçısı Azərbaycana səfərlərindən, o cümlədən COP zamanı ölkəmizə gəlməsindən çox məmnundur. Söhbət zamanı Azərbaycan ilə İraq Kürdüstan Regionu arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılıb. Biznes dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin, onların arasında birbaşa təmasların yaradılmasının və biznes-forumların keçirilməsinin vacibliyi qeyd olunub.

***

Azərbaycan Prezidentinin dünyanın iri investisiya və maliyyə şirkətlərinin rəhbərləri ilə də görüşləri maraqlı keçib. Davosda qarşı tərəfin müraciəti əsasında "The Goldman Sachs Group İnc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb. Görüşdə Azərbaycan ilə "The Goldman Sachs Group Inc." şirkəti arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb, ölkəmizlə şirkət arasında 2010-cu ildən uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Azərbaycan Respublikası Dövlət Neft Fondunun "The Goldman Sachs Group Inc." ilə uğurlu tərəfdaşlığının ölkənin maliyyə sektorunun inkişafı və beynəlxalq investisiya imkanlarının genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Cared Kohen təmsil etdiyi şirkətin qlobal miqyasda maliyyə və investisiya sahələrində fəaliyyətindən danışaraq, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, regionda baş verən iqtisadi proseslərin şirkət üçün böyük maraq kəsb etdiyini və gələcəkdə yeni layihələr çərçivəsində tərəfdaşlığın inkişafı istiqamətində potensial imkanların araşdırıldığını bildirib.

1869-cu ildə təsis edilmiş və mənzil-qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən "The Goldman Sachs Group Inc." investisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində xidmət göstərən aparıcı qlobal maliyyə institutudur. Şirkət hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir və müxtəlif siniflər üzrə 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

***

Dövlətimizin başçısı Davosda "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru Nik Studer ilə görüşüb. Nik Studer "OliverWyman Group" şirkətinin beynəlxalq strateji idarəedici şirkət olaraq ölkəmizdə müxtəlif qurumlarla mümkün əməkdaşlıq istiqamətlərinə toxunub, Azərbaycanın iqtisadi transformasiya prosesinin, sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və yaşıl enerji sahələrində həyata keçirilən layihələrə, kənd təsərrüfatı məhsullarının ixracına, bölgədə yeni ticarət imkanlarını əhatə etməklə dəyər zəncirinin lokallaşdırılmasına maraq göstərdiklərini qeyd edib. O, Azərbaycanın əldə etdiyi uğurları yüksək qiymətləndirib.

Dövlətimizin başçısı şirkətin Azərbaycana marağını dəstəkləyərək, ölkəmizin müvafiq qurumları ilə "OliverWyman Group" arasında əməkdaşlığın qurulması məsələlərinə toxunub.

***

Azərbaycan Prezidenti Davosda qarşı tərəfin müraciəti əsasında "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb. Görüşdə "DP World" şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivləri, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə müzakirələr aparılıb. Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu xüsusi vurğulandı, mümkün əməkdaşlıq istiqamətləri müzakirə olunub. "DP World" dünyanın ən böyük liman operatorlarından biridir. Hazırda "DP World" dünyanın müxtəlif yerlərində 80-nə yaxın limanın operatorluğu ilə məşğuldur. Dövlət başçısı "Carlsberg Group" şirkətinin baş icraçı direktoru ilə də görüşüb.

# Siyasi partiyalar üçün ciddi sınaq

## Ölkədə fəaliyyət göstərən 26 siyasi partiyadan 23-ü bələdiyyə seçkiləri marafonuna qoşulub

Bələdiyyə seçkilərinə sayılı günlər qalır. Hazırda seçkilərə hazırlığın mühüm mərhələsi - təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Bütün tədbirlər "Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı"na uyğun olaraq reallaşdırılır. Aparılan müşahidələr isə onu deməyə əsas verir ki, müstəqil Azərbaycanın tarixində ilk dəfə ölkənin bütün ərazisində baş tutacaq bələdiyyə seçkiləri yüksək rəqabət şəraitində keçəcək.

**Siyasi partiyaların yüksək fəallığı**

Müasir dövət kimi inkişaf edən müstəqil Azərbaycan demokratik inkişaf yolunu öz siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Ölkəmizdə dövətin, şəxsən Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq 2018-ci ildən etibarən yeni siyasi konfiqurasiyanın formalaşması istiqamətində inamlı addımlar atılır. Ayrı-ayrı siyasi partiyaların təmsilçiləri də icra strukturlarında, parlamentdə müxtəlif vəzifələrə irəli çəkilirlər ki, bu da cəmiyyətimizdə həmrəylik ruhunu daha da gücləndirir. Aparılan islahatların məntiqi nəticəsi olaraq ölkəmizdə söz, fikir plüralizmi yüksək səviyyədə təmin edilib, o cümlədən Konstitusiya və digər hüquqi sənədlərlə vətəndaşların seçki hüququ təsbit olunub.




Hazırda respublikamızda siyasi partiyalar üçün çox məsuliyyətli bir dövrdür.Yerli özünüidarəetmə orqanlarının cəmiyyətə ən yaxın icra strukturları olduğunu nəzərə alsaq, deyə bilərik ki, bələdiyyə seçkiləri siyasi partiyalar üçün ciddi bir sınaqdır. Sirr deyil ki, siyasi partiyaların nüfuzu onların seçkilərdə qazandıqları nəticələrlə ölçülür. Hansı partiya yüksək fəallıq göstərirsə və fəaliyyətini milli iradədən, xalqın sosial sifarişlərindən çıxış etməklə qurursa, təbii ki, seçkilərdə həmin partiyanın namizədləri daha çox səs qazanırlar. Əslində, bələdiyyə seçkiləri siyasi partiyaların idarəçilikdə iştirakı baxımından çox önəmlidir. Buna görə də onlar seçki marafonuna daha çox sayda yer qazanmaq əzmi ilə qoşulublar. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə müsahibəsində seçkilərə qatılan siyasi partiyaların sayına aydınlıq gətirib. Onun sözlərinə görə, Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyadan 23-ü seçkilərdə iştirak edir. Bu da bir ilkdir: "Ötən seçkilərdə siyasi partiyalar bələdiyyə seçkilərinə o qədər ciddi yanaşmırdılar. Lakin bu seçkilərdə 23 siyasi partiya iştirak edir", - deyə MSK sədri vurğulayıb.

Seçkiləri izləmək üçün 70 mindən artıq müşahidəçinin qeydə alındığını deyən M.Pənahovun sözlərinə görə, xarici müşahidəçilər qeydiyyata alınmayıb. Nəticələrin nə vaxt elan olunacağına aydınlıq gətirən MSK sədri bildirib: "Hesab edirəm ki, səsvermə günü aşkarlıq baxımından bütün tələbləri yerinə yetirəcəyik və yanvarın 29-u axşam və yanvarın 30-da ilkin nəticələri ictimaiyyətə çatdırmağa çalışacağıq. Bələdiyyə seçkilərində bu məsələ bir az çətindir, çünki namizədlərin və seçilənlərin sayı çoxdur".

**Bələdiyyələr necə formalaşacaq?**

Aparılan islahat tədbirlərinə uyğun olaraq ölkəmizdə bələdiyyələr yeni qaydalar əsasında formalaşacaq. Kiçik bələdiyyələrin birləşdirilməsi ən mühüm dəyişikliklərdən biridir. Bu, idarəetmənin səmərəliliyinin artırlması və izafi xərclərin aradan qaldırılması nöqteyi-nəzərindən çox vacibdir. Məzahir Pənahov bildirib ki, ölkə üzrə 685 bələdiyyə var, yanvarın 29-da keçiriləcək seçkilərdə bələdiyyələrə 8 min 71 üzv seçilməlidir.

Eyni zamanda, Azərbaycanda bələdiyyələrin yeni tərkibinin ilk iclasının keçirilməsi və sədrinin seçilməsi ilə bağlı qaydalar da təsdiqlənib. Bu, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlara edilən dəyişikliyə əsasən mümkün olub. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev müvafiq dəyişikliyin əks olunduğu Qanunu imzalayıb

Dəyişikliyə əsasən, yeni seçilən bələdiyyənin ilk iclası Mərkəzi Seçki Komissiyası tərəfindən bələdiyyə seçkilərinin yekunları elan edildikdən sonra beş iş günü müddətində keçiriləcək. Bələdiyyənin ilk iclasında bələdiyyənin sədri seçilənədək yaşı daha çox olan üzv iclasa sədrlik edəcək. İclasa sədrlik edən bələdiyyəyə üzv seçilmiş şəxslərin siyahısını elan edəcək, ilk iclası bələdiyyə sədri və iclas katibi seçilənədək aparacaq.

Bələdiyyənin sədri açıq və ya gizli səsvermə yolu ilə seçiləcək. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunacaq. Bələdiyyənin ilk iclasında bələdiyyə sədri və iclas katibi seçildikdən sonra iclasın gündəliyi təsdiq ediləcək.

*Mübariz FEYİZLİ*

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər Xiyabanını ziyarət ediblər



20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər Xiyabanını ziyarət ediblər. YAP nümayəndələri Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər düzüblər. "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Partiya nümayəndələri tərəfindən "Türk şəhidliyi" abidəsi də ziyarət olunub, abidənin önünə əklil və gül dəstələri qoyularaq Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçmiş türk qardaşlarımızın xatirəsi ehtiramla anılıb.

# Cənubi Qafqazın nümunəvi ölkəsi

Azərbaycan və Gürcüstan arasında müxtəlif sahələrdə birgə icra olunan layihələr həm bu ölkənin regional mövqeyinin artmasına, həm də iqtisadi təhlükəsizliyinin möhkəmlənməsinə və inkişafına töhfə verməkdədir. Respublikamızın təşəbbüsü və fəal iştirakı ilə reallaşdırılan enerji və nəqliyyat layihələri bütünlüklə regional əməkdaşlığın genişlənməsi ilə yanaşı, qonşu dövlətin də dünya iqtisadiyyatına inteqrasiyasına dərin yol açır, qlobal bazarlara bağlayır. Bu baxımdan, Azərbaycanın müəllifi olduğu nəhəng enerji-nəqliyyat-kommunikasiya dəhlizləri Gürcüstan üçün həyati əhəmiyyət kəsb edir.

Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan transmilli layihələr iki ölkə arasında iqtisadi-ticarət əməkdaşlığının da inkişafını təmin etməkdədir. Hazırda iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 1 milyard dollara yaxındır ki, onun da mütləq əsas hissəsi Azərbaycanın ixracıdır. Bu rəqəmlər bir daha təsdiq edir ki, qonşu ölkənin iqtisadi-ticari təminatının böyük bir qismi Azərbaycan tərəfindən həll edilir. Eyni zamanda,

## Azərbaycan Gürcüstanın qlobal iqtisadiyyata və enerji-nəqliyyat dəhlizlərinə bağlantısını genişləndirir

Gürcüstanın enerji, nəqliyyat, infrastruktur, yanacaq, kommunikasiyalar və s. sahələrində inkişaf layihələri də Azərbaycanın maddi dəstəyi ilə həyata keçirilməkdədir. İnvestisiya sahəsində əməkdaşlığın yaxşı dinamikasının nəticəsidir ki, Azərbaycan Gürcüstana ən çox sərmayə yatıran ölkədir.



## Regionun ən güclü investoru

Azərbaycanın Gürcüstana böyük həcmdə investisiya yatırmasının əsası 2006-cı ilin sonlarından qoyulub. Həmin vaxt SOCAR Gürcüstandakı "Kulevi" terminalına sahib olub, 2008-ci ildə təsis olunmuş "SOCAR Energy Georgia" şirkəti Gürcüstanda ilk yanacaqdoldurma stansiyasını açaraq bu şəbəkəni genişləndirib. Hazırda Gürcüstan ərazisində "SOCAR" brendi altında 50-yə yaxını stansiya fəaliyyət göstərir. Gürcüstanda pərakəndə neft məhsulları satışı bazarının 75 faizi Azərbaycanın nəzarətindədir. Son illərdə bu ölkənin nəqliyyat, infrastruktur, enerji sektorlarının əsaslı şəkildə yenidən qurulmasında da ölkəmiz əsas maliyyə təchizatçısı kimi çıxış edib. Ümumilikdə, son 30 ildə Azərbaycan bu ölkəyə 4 milyard dollara yaxın sərmayə qoyub. Həmçinin, Azərbaycan şirkətləri Gürcüstanda ən böyük vergi ödəyiciləridir ki, bu da fiskal yığımlarda da ölkəmizin təminatlı rolunu təsdiqləyir. Eləcə də Gürcüstanın bölgələrində zəruri infrastrukturlar da ölkəmizin sayəsində modernləşdirilib ki, bu da sosial əhəmiyyət daşımaqla əhalinin dayanıqlı kommunal xidmətlərlə təminatını yaxşılaşdırıb. Bütün bunlar onu göstərir ki, qonşu ölkənin iqtisadiyyatının əhəmiyyətli bir hissəsi Azərbaycanın maliyyəsi hesabına təmin olunur.

Azərbayca həm də Gürcüstanın dünyaya bağlantısını da təmin edən və Cənubi Qafqazdan Avropaya enerji-nəqliyyat tranzitlərinə qoşan lider dövlətdir. Qeyd edək ki, Azərbaycanın əlavə sərmayəsi və Gürcüstan tərəfinin səyləri nəticəsində bu yolun yükaşırma qabiliyyəti 1 milyon tondan 5 milyon tonadək artırılıb. Həmçinin, Orta Dəhlizin mühüm halqası olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 mln tondan 25 mln tona qədər yüksəldilib.

## Gürcüstan Azərbaycanın liderliyi ilə milli inkişafını möhkəmləndirir

Hər iki ölkə qlobal əhəmiyyətli nəqliyat dəhlizləri üzərindən aparılan yük daşınmalarının intensivliyini daha da artırmaq üçün infrastrukturları müasirləşdirir, o cümlədən nəqliyyat qovşaqlarını rəqəmsallaşdırır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit gömrük prosedurlarının asanlaşdırılması nəzərdə tutulur ki, bu da beynəlxalq ticarət qaydalarının sadələşdirilməsi fonunda Gürcüstanın beynəlxalq nəqliyyat qovşaqlarına çıxışını daha da asanlaşdıracaq. Yeni İpək Yolunun Orta Dəhlizində öz strateji mövqeyini artıran Azərbaycan nəqliyyat sistemlərinin ötürücülüyünün daha da güclənməsində və şaxələnməsində xüsusi təşəbbüskarlıq etməklə yanaşı, Gürcüstanın da Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində rolunu artıracaq. Nəticədə də bölgədə nəqliyyat-logistika zənciri daha da genişlənməklə, Cənubi Qafqazın hər iki ölkəsini inkişaf etmiş mərkəzə çevirəcək, Şərq və Qərb arasında geosiyasi mövqeyini gücləndirəcək. Eyni zamanda, Azərbaycan və Gürcüstanın iştirakı ilə Avropaya "yaşıl enerji" körpüsünün salınması müasir iqtisadi fraqmentasiyaları formalaşdırır.




Ümumiyyətlə, Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdiyi meqalayihələr uğurlu regional əməkdaşlıq nümunəsi olmaqla, Cənubi Qafqazın transformasiyasına xidmət edir, bölgənin enerji və nəqliyyat xəritəsini dəyişdirir.

Beləliklə, Gürcüstan bütün iqtisadi layihələrdə təmsil olunmaqla həm öz iqtisadi infrastrukturlarını yaxşılaşdırır, həm də Azərbaycanın liderliyi ilə öz milli inkişafını möhkəmləndirmiş olur.

*E.CƏFƏRLİ*

# Xalq-iqtidar birliyi sarsılmazdır!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Kəngərli rayonu, Qarabağlar bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Kəngərli rayon təşkilatının sədri Sevda Quluyeva Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak



edərək xalqa layiqli xidmət nümunəsi yaratdığını bildirib. "Sarsılmaz təməllərə söykənən xalq-iqtidar birliyi davamlı uğurlarımızın əsasıdır. Bugünədək ardıcıl qələbələr qazanan Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədlərin bələdiyyə seçkilərində xalqımız tərəfindən dəstəklənəcəyinə inanırıq", - deyə o vurğulayıb.

Seçki qərargahının üzvü Hüseyn Süleymanov, bələdiyyə üzvlüyünə namizədlər Nurəddin Babayev, Ramidə Babayeva, Asif Ağammədov,



Aysel Şəfiyeva, Ülvü Vəliyev, Sevil Təmoyeva, Əhməd Qənbərov, Turanə Niftəliyeva, Zülqər Cəfərzadə, Naimə Rüstəmova, Yaqub Vəliyev və Allahverdi Məmmədov YAP-ın seçki proqramında nəzərdə tutulan hədəflərin gerçəkləşdirilməsinin yerli özünüidarəetməni təkmilləşdirəcəyini vurğulayaraq seçiciləri partiyanın namizədlərini dəstəkləməyə çağırıblar.

# Yeni Azərbaycan Partiyası ölkəmizin parlaq gələcəyi üçün çalışır



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Lerik rayonu, Çayrud bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Lerik rayon təşkilatı sədrinin müavini El-



nur Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlar nəticəsində Azərbaycan qalib və qüdrətli ölkəyə çevrilib. "Müasir Azərbaycanın tərəqqisi qalib ölkənin lider partiyası olan Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır", - deyə o vurğulayıb.

Seçki qərargahının üzvləri Elman Rəcəbov, Xanlar Həmid, bələdiyyə üzvlüyünə namizədlər Dadaş Əlirzayev, Altay Abbaszadə və Muğdad Şahpələngov qeyd ediblər ki, Yeni Azərbaycan



Partiyası daim Azərbaycanın parlaq gələcəyi üçün çalışır: "YAP Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarının həyata keçirilməsinə layiqli töhfələrini verir".

Natiqlər seçiciləri yanvarın 29-da seçki məntəqələrinə gedərək öz səsvermə hüquqlarından istifadə etməyə, dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıblar.

# Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Naftalan şəhəri, Naftalan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Naftalan şəhər təşkilatının sədri Rövlan



Heydərov bildirib ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx birləşib və həyata keçirilən siyasəti birmənalı olaraq dəstəkləyir: "Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Yeni reallıqlardan irəli gələn hədəflərin reallaşdırılması ölkəmizi yeni zirvələrə yüksəldəcək".

Təşviqat qrupunun üzvləri Ulduz Mayılova, Yavər Aslanov, bələdiyyə üzvlüyünə namizədlər Elman Verdiyev və Dünya Nağıyeva Yeni Azər-



baycan Partiyasının yeni hədəflərə doğru inamla irəlilədiyini vurğulayaraq seçiciləri bələdiyyə seçkilərində YAP-ın namizədlərini dəstəkləməyə çağırıblar.

Seçicilər Aqil Bayramov, Elsevər Heydərov, Valeh Hacıyev, Fəridə Hacıyeva və digərləri daha qüdrətli Azərbaycan naminə partiyanın namizədlərinə səs verəcəklərini qeyd ediblər.

# İnamlı qələbələr yüksək etimadın göstəricisidir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şəmkir rayonu, Şəmkir və Şiştəpə bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.

YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev Yeni Azərbaycan Partiyasının



şərəfli inkişaf yolundan danışıb. "YAP-a xalqın sevgisi böyükdür. Partiyamızın inamlı qələbələri yüksək etimadın göstəricisidir", - deyən F.Vəliyev partiya sıralarının gündən-günə genişlənməsinin xalqın Prezident İlham Əliyevin siyasətinə qətiyyətli dəstəyinin bariz nümunəsi olduğunu qeyd edib.

Təşviqat qrupunun üzvləri Zamir Güvəndiyev, Azər Qəhrəmanov, bələdiyyə üzvlüyünə namizədlər Qalib Atakişiyev və Novruz Hüseynov qarşıda duran bütün vəzifələrin yüksək



səviyyədə yerinə yetirildiyini, yeni reallıqların yeni qələbələr vəd etdiyini diqqətə çatdırıblar.

Natiqlər YAP-ın bələdiyyə seçkilərində xalqın dəstəyi ilə inamlı qələbə qazanacağına əminliklərini ifadə edib, seçiciləri partiyanın namizədlərinə səs verməyə çağırıblar.

# Görülən işlər davamlı yüksəlişi təmin edir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Xaçmaz rayonu, Xaçmaz, Köhnə Xaçmaz, Hülövlü və Çarxı bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Xaçmaz rayon təşkilatının sədri Mə-



həmməd Balaqadaşov Yeni Azərbaycan Partiyasının seçki proqramı haqqında ətraflı məlumat verib. O, xalqın partiyanın məqsədyönlü fəaliyyətinə hər zaman yüksək qiymət verdiyini deyib. "Ümumiyyətlə ölkəmizin uğurlu inkişafı dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətin alternativinin olmadığını təsdiqləyir", - deyə M.Balaqadaşov vurğulayıb.

Bələdiyyə üzvlüyünə namizədlər Tural Məlikov, Gülnar İsayeva, Raya Nəsirova, İlkin Seyidov, Eyyub Abdurəhmanov, Anar Hacıyev, Mahir Fətəliyev və Sübhan Məmmədov



bildiriblər ki, görülən işlər bütün sahələrdə davamlı yüksəlişi təmin etməklə bərabər, bələdiyyə institutunun inkişafı üçün də möhkəm zəmin formalaşdırır. YAP-ın seçki proqramında əksini tapan hədəflərin önəmini diqqətə çatdıran natiqlər seçiciləri bələdiyyə seçkilərində partiyanın namizədlərinə dəstək verməyə çağırıblar.

# Ucar seçiciləri inkişafa səs verəcəklər!




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ucar rayonu, Ucar bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişafa nail olub, insanların rifahı daha da yaxşılaşıb və bu istiqamətdə ardıcıl tədbirlər davam etdirilməkdədir. O, Yeni Azərbaycan Partiyasının cəmiyyətdə yüksək nüfuza malik olduğunu, qarşıdan gələn bələdiyyə seçkilərinə böyük ruh yüksəkliyi və qələbə əzmi ilə getdiyini vurğulayaraq Ucar seçicilərinin növbəti dəfə inkişafa səs verəcəklərinə əminliyini ifadə edib.



Təşviqat qrupunun üzvləri Mirzalı Ağamalıyev, Rəna Cəfərova, Yusif Məmmədov, bələdiyyə üzvlüyünə namizəd Əkbər Məhərrəmov bütün sahələrdə əldə olunan nailiyyətlərin əhəmiyyətini vurğulayıblar. "Hazırda başlıca məqsəd uğurlarımızı daha da möhkəmləndirmək üçün əzmlə çalışmaq və yeni müvəffəqiyyətlərə çatmaqdır", - deyə vurğulanaraq seçicilərə YAP-ın namizədlərinə səs vermək çağırışı edilib.



# “YAP-ın namizədlərinə səs verəcəyik!”



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağstafa rayonu, Xətai bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının



(YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

Seçki qərargahının üzvü Tağı İmamverdiyev, təşviqat qrupunun üzvü Mahmizər Əliyeva, bələdiyyə üzvlüyünə namizədlər Mirəsgər Mahmudov və Sarı Maşayev bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində rolundan bəhs ediblər. Onlar YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək seçiciləri Yeni Azərbaycan Partiyasının



namizədlərini dəstəkləməyə çağırıblar.

Seçicilər Əsli Əsgərova, Həmid Vəliyev və digərləri Azərbaycana mühüm uğurlar qazandıran Yeni Azərbaycan Partiyasını dəstəklədiklərini və bələdiyyə seçkilərində partiyanın namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Uğurlu siyasət yeni qələbələri şərtləndirir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Göygöl rayonu, Hacıməlik bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü



keçirilib. YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev bildirib ki, Yeni Azərbaycan Partiyası milli maraqlara əsaslanan fəaliyyəti ilə xalqın etimadını doğruldub. Onun sözlərinə görə, uğurlu siyasət yeni qələbələri şərtləndirir.

Bələdiyyə seçkilərinin əhəmiyyətini diqqətə çatdıran V.İsayev qeyd edib ki, yerli özünüidarəetmənin təkmilləşdirilməsi, eləcə də əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılması naminə qarşıda mühüm vəzifələr durur.



Bələdiyyə üzvlüyünə namizədlər Amil Hüseynov, Kamilə Rzayeva, Mahir Həsənov və Mədəd Rzayev YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək seçiciləri fəal olmağa çağırıblar.

Seçicilər Ucar Rzayev, Aqilə Nağıyeva, Kəmaləddin İsmayılov və digərləri bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Yeni hədəflərə nail olmaq üçün...




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Xızı rayonu, Xızı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.




YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev bildirib ki, Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərinə yeni reallıqlar və çağırışlar fonunda qələbə əzmi ilə qatılıb: “Partiyamız ölkədə keçirilmiş bütün seçkilərdə parlaq qələbələr qazanıb. Şübhə yoxdur ki, bələdiyyə seçkiləri də YAP-ın tarixinə növbəti si-



yasi nailiyyət kimi yazılacaq”.

Təşviqat qrupunun üzvü Fərrux Haqverdiyev, bələdiyyə üzvlüyünə namizədlər Gülşən Rüstəmli, Yaxşıxanım Qasımova və Anar Mahmudlu yerli özünüidarəetmə orqanlarının təkmilləşdirilməsi üçün görülən işlərin önəmindən bəhs ediblər. Qeyd olunub ki, bu sahədə əldə edilən müsbət nəticələrə yanaşı, qarşıda mühüm vəzifələr durur. Natiqlər yeni hədəflərə nail olmaq üçün seçiciləri bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Yeni Azərbaycan Partiyası avanqard siyasi qüvvədir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Salyan rayonu, Kür Qaraqaşlı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Salyan rayon təşkilatı sədrinin müavini Aqşin Babayev Yeni Azərbaycan Partiyasının ölkəmizin inkişafı istiqamətində önəmli işlər gördüyünü və mü-



hüm nailiyyətlərə imza atdığını deyib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyasının böyük qələbə əzmi ilə seçkilərə qatılması onun avanqard qüvvə kimi hər zaman siyasi mübarizələrə hazır olduğunu nümayiş etdirir.

Təşviqat qrupunun üzvləri Allahverdi Piriyev, Baleyvaz Hüseynov, bələdiyyə üzvlüyünə namizədlər



Fəxrəddin Vəliyev və Seymur Əliyev partiyanın seçki proqramı haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, xalqın iradəsi əsasında yeni formalaşacaq bələdiyyələrdə təmsil olunmaq hüququ qazanacaq YAP üzvləri öz fəaliyyətlərini yeni hədəflərin reallaşdırılması istiqamətində quracaqlar.

Seçicilər Samid Quliyev, Ülvi Rüstəmov və digərləri bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Güclü dövlət, yüksək rifah...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Samux rayonu, Samux bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov Azərbaycanın güclü dövlət olaraq xalqın yüksək rifahını təmin



etdiyini bildirib. O, Yeni Azərbaycan Partiyasının əməli fəaliyyəti ilə böyük rəğbət qazandığını və bu gün cəmiyyətin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirdiyini deyib: “İndiyədək ölkəmizin inkişafına mühüm töhfələr verən Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımıza yeni nailiyyətlər qazandıracaq”.

Təşviqat qrupunun üzvləri Mirzəmməd



Orucov və Namiq Cəfərov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması məqsədilə islahat xarakterli tədbirlərin davam etdirilməsinin başlıca hədəflərdən olduğu qeyd edilib. Natiqlər seçiciləri bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasına səs verməyə dəvət ediblər.

# Şəkililərin seçimi ümumxalq partiyasıdır!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şəki rayonu, Cəyirli bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov ölkəmizdə ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. O, bələdiyyə seçkilərinin önəminə toxunaraq YAP tərəfindən namizədliyi irəli sürülən şəxslərin ölkə vətən-



daşlarının yüksək rifahı naminə öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün var gücü ilə çalışacaqlarına inamını ifadə edib.

Təşviqat qrupunun üzvü Cəsarət Baxışov, bələdiyyə üzvlüyünə namizədlər Sahib Əliyev, Qurban Rəhimov və Namiq Məmmədov Yeni Azərbaycan Partiyasının şərəfli inkişaf yolu keçdiyini qeyd edib-



lər. Yeni dövrün reallıqlarına uyğun hədəflərin uğurla reallaşdırıldığını bildirən natiqlər əhalinin rifahının yüksəldilməsinin də daim diqqətdə saxlanıldığını vurğulayıblar. “Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan layihələr, aparılan islahatlar nəticəsində bütün bölgələrdə, o cümlədən Şəki rayonunda mühüm nailiyyətlər qazanılıb”, - deyə bildirilib.

Seçicilər adından çıxış edən Azər Həsənov qarşıdan gələn bələdiyyə seçkilərində hər zaman xalqın yanında olan YAP-ın namizədlərinə səs verəcəklərini bildirib. “Şəkililərin seçimi ümumxalq partiyasıdır”, - deyə vurğulanıb.

# Tramp Ağ evə qayıtdı...

## Nikbin və əminliklə...

### ABŞ-ın 47-ci Prezidenti and içərək prioritetlərini açıqladı

Dünya ictimaiyyətinin aylardır gözlədiyi an çatdı - yanvarın 20-də ABŞ-ın 47-ci Prezidenti seçilmiş Donald Tramp Kapitolidə and içdi. Yüzlərlə qonağın və televiziya ekranlarından inauqurasiyanı izləyən milyonlarla izləyicilərin qarşısında çıxış edən ABŞ-ın yeni prezidenti Donald Tramp ölkəsinin dünəni, bü günü və sabahı ilə bağlı fikir və proqramlarını diqqətə çatdırdı.



**Yeni eranın başlanğıcı...**

Yeni prezident Tramp inauqurasiyasını ölkə üçün tarixi dönüş nöqtəsi adlandırıb. O, "nitqinə "20 yanvar 2025-ci il ABŞ vətəndaşları üçün "azadlıq günü" olacaq"- deyə başlayıb. Tramp bildirib ki, prezident seçkilərindəki qələbəsi bir daha sübut etdi ki, əhalinin demək olar ki, bütün təbəqələri, bütün etnik qruplar və bütün yaş qrupları arasında onun proqramına dəstək kəskin şəkildə artıb. Ağ Ev rəhbəri qeyd edib ki, onu seçkilərdə milli azlıqlar, xüsusilə Latın Amerikası və Asiya əsilli amerikalılar fəal dəstəkləyib. "Səs verməklə mənə göstərdiyiniz böyük sevgi və etimada görə sizə təşəkkür etmək istəyirəm.

Tramp "Amerika tənəzzülünə" son qoyacağına söz verib. "Burada və indi ABŞ-ın qızıl dövrü başlayır" deyən ABŞ-ın 47-ci prezidenti ölkənin "dəyişiklik dalğası ilə süpürüldüyünü" vurğulayaraq, Ağ Evə "nikbinliklə və əminliklə qayıtdığını" qeyd edib. O deyib ki, milli uğurun yeni və həyəcanverici dövrünün başlanğıcındadırlar".

**Elektrikli avtomobilə "yox"...**

Prezident kimi and içdikdən sonra xalqa müraciət edən Trampın çıxışı aqressiv tonu ilə seçilib - o, bir sıra genişmiqyaslı xarici və daxili siyasət təşəbbüslərini açıqlayıb. Tramp enerji sektorunda fövqəladə vəziyyət elan edəcəyinə söz verib ki, bu da qalıq yanacaqların istehsalını artırmağa imkan verəcək. "Biz yenidən zəngin ölkəyə çevriləcəyik və bu işdə bizə ayağımızın altındakı maye qızıl kömək edəcək", - deyə, o vurğulayıb. Tramp həmçinin ABŞ-ın Paris İqlim Sazişindən bir daha çıxacağını açıqlayıb (artıq bununla bağlı fərman belə imzalayıb) və ölkənin bundan sonra elektrikli avtomobillərin payını artırmağa çalışmayacağını bildirib. O, "Amerika avtomobil sənayesini xilas edəcək və hər kəs istədiyi avtomobili ala biləcək", deyə əlavə edib.

**Miqrantlar deportasiya ediləcək...**

Trampın seçki dövründən bu yana gələcək proqramının ana xəttini təşkil edən məsələlərdən biri isə miqrasiyadır. Tramp müraciətində ölkəni bürüyən "fəlakətli işğalı dəf etmək" üçün ABŞ-ın cənub sərhədinə qoşun göndərəcəyini bildirib. Beləliklə qeyri-qanuni miqrantlar ölkəyə buraxılmayacaq. ABŞ-ın yeni prezidenti milyonlarla" qeyri-qanuni immiqrantın planlaşdırılan kütləvi deportasiyasını həyata keçirəcəyini açıq şəkildə bildirib. O, administrasiyasını bütün xarici dəstələri və cinayət şəbəkələrini sıradan çıxarmaq üçün həm federal, həm də əyalət hüquq-mühafizə orqanlarının "tamamilə maneəsiz gücündən" istifadə etməyə istiqamətləndirəcəyini söyləyib.

**ABŞ dünyadakı münaqişələrin həllində iştirak edəcək**

Donald Tramp, həmçinin dünyadakı münaqişələrin həllində iştirak edəcəyini bildirib. "Bizim uğurumuz təkcə qalib gəldiyimiz döyüşlərdən yox, həm də bitirdiyimiz müharibələrdən ibarət olacaq. Müharibələrə cəlb edilməmək vacib olacaq". ABŞ rəhbəri qeyd edib ki, "mən sülhməramlı və insanları bir araya gətirən insan olmaq istəyirəm". O, eyni zamanda ABŞ ordusunun gücləndirilməsinə diqqət yetirəcəyinə söz verib. "Biz 2017-ci ildə etdiyimiz kimi bir daha dünya tarixinin ən güclü ordusunu quracağıq".

Tramp inauqurasiya nitqində ölkənin tənəzzülünə səbəb olan səhiyyə və təhsildə əsas problemlərə də eyham vurub. O, ölkəsinin daxili böhranla üzləşdiyini də etiraf edib. "Səhiyyə sistemimizə dünyanın digər ölkələrindən daha çox pul xərclənməsinə baxmayaraq, bu sahədəki işlər uğursuzluqla nəticələnir. Uşaqlarımıza özündən utanmağı, bəzi hallarda isə nifrət etməyi öyrədən təhsil sistemimiz var. Bütün bunlar bu gündən etibarən dəyişəcək".



Onun sözlərinə görə, hazırda ABŞ daxili böhran və xaricdə fəlakətli hadisələrlə üz-üzədir. ABŞ Prezidenti xüsusilə əvvəlki administrasiya tərəfindən COVID-19 peyvəndindən imtina etdiyi üçün silahlı qüvvələrdən uzaqlaşdırılan hərbi qulluqçuları xidmətə qaytaracağına söz verib.

**ABŞ-da iki cins olacaq...**

Tramp seçki platformasının mühüm bir hissəsini təşkil edən LGBT məsələsinə bird aha toxunaraq xalqa müraciətində bildirib ki, ABŞ-da yalnız iki bioloji cinsin - kişi və qadının tanınmasını təmin edəcək. "Bu gündən etibarən ABŞ administrasiyasının rəsmi siyasəti ondan ibarət olacaq ki, yalnız iki cins var: kişi və qadın". Tramp ictimai və şəxsi həyatın bütün aspektlərinə irqi və genderi sosial cəhətdən aşılamaq cəhdi siyasətinə son qoyacağını vəd edib.

**Panama qaytarılmalıdır...**

Respublikaçı Prezidentin xarici siyasətinin növbəti hissəsi isə Panama kanalının geri qaytarılacağı ilə bağlı olub. O, ABŞ tarixində ən bahalı tikinti layihəsi olan kanalın Panamaya verilməsini "axmaqlıq" adlandırıb. "Amerika gəmiləri indi Panama tərəfindən deyil, ABŞ-ın heç vaxt belə hüquqlar vermədiyi Çin tərəfindən idarə olunan Panama kanalından keçmək üçün artıq rüsum ödəməli olur". Bundan əlavə, Tramp Meksika körfəzinin adını Amerika körfəzi, eləcə də Şimali Amerikanın ən hündür dağı Denaliyə əvvəlki adı olan MakKinliyə qaytarmaq niyyətini açıqlayıb.

**ÜST-dən və İqlim Sazişindən çıxdı, yardımları dayandırdı...**

Donald Tramp ilk qərarları ilə də "yaddaqalan olub". Belə ki, ABŞ Prezidenti ölkənin Paris İqlim Sazişindən yenidən çıxması haqqında fərman imzalayıb. Dövlət başçısı bunu Vaşinqtondakı "Capital One" İdman-Konsert Kompleksində tərəfdarlarının iştirakı ilə edib. Respublikaçı qlobal istiləşmə konsepsiyasının elmi etibarlılığına dair şübhələrini dəfələrlə dilə gətirib. Qeyd edək ki, ki, bu addım ABŞ tarixində artıq ikincidir - 2017-ci ildə ABŞ Paris İqlim Sazişindən birinci dəfə çıxıb. 2020-ci ilin noyabrına qədər ölkə razılaşmadan çıxma prosesini başa çatdırıb, lakin 2021-ci ilin yanvarında ABŞ Prezidenti vəzifəsinin icrasına başlayan Cozef Bayden Vaşinqtonun Paris Sazişinə qayıtması haqqında fərman imzalayıb.

Eyni zamanda, Tramp ABŞ-ın digər ölkələrə bütün yardım proqramlarının 90 gün müddətinə müvəqqəti dayandırılması haqqında fərman imzalayıb. Yardımın yeni administrasiyanın siyasi məqsədlərinə uyğun olub-olmadığını müəyyən etmək üçün yoxlama aparılacaq. Ukraynaya dəstək kimi xüsusi hallar istisna olmaqla, ABŞ-ın xarici yardımı, ümumiyyətlə, büdcənin 1 %-dən çox olmayıb.

Prezident Trampın səlahiyyətlərinin icrasına rəsmən başladığı anda verdiyi qərarlardan biri də Birləşmiş Ştatlatın Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) çıxması haqqında fərman olub. Amerika lideri, prezidentlik dövründə təxminən 350 milyon əhalisi olan ABŞ-ın ÜST-ə üzvlüyünün 500 milyon dollar, əhalisi 1,4 milyard dollardan çox olan Çinin isə təxminən 39 milyon dollar ödədiyi məlumatlara istinad edib. "Mənə elə gəldi ki, bu, bir az ədalətsizdir. Səbəb bu deyildi, amma mən ÜST-dən ayrıldım".

**Baydenin qərarları ləğv edilir, kadrları uzaqlaşdırılır...**

ABŞ Prezidenti Donald Tramp sələfi, demokrat Cozef Baydenin administrasiyası tərəfindən qəbul olunmuş 80-ə yaxın qərarı ləğv edəcək. Tramp bildirib ki, ilk addım tarixin ən pis administrasiyalarından biri olan əvvəlki administrasiyanın həyata keçirdiyi təxminən 80 dağıdıcı və radikal qərarları ləğv etməkdir - ən pislərdən biri deyil, ən pisini. Eyni zamanda, ABŞ lideri Donald Trampın kadrlar şöbəsi Cozef Baydenin əvvəlki administrasiyası dövründə təyin edilmiş mindən çox insanın işdən çıxarılması proseduruna başlayıb. Tramp bu barədə "Truth Social"da yazıb. "Mənim kadrlar şöbəm əvvəlki administrasiyadan "Amerikanı yenidən qüdrətli edək" konsepsiyamıza uyğun gəlməyən 1000-dən çox prezident təyinatlı şəxsin müəyyənləşdirilməsi və işdən çıxarılması ilə fəal məşğuldur. "Fiziki Sağlamlıq və İdman üzrə Prezident Şurasından Xose Andres, İnfrastruktur üzrə Milli Məşvərət Şurasından Mark Milli, Vudro Vilson Mərkəzindən Brayan Huk və İxrac üzrə Prezident Şurasından Keyşa Lens Bottoms - siz işdən azad edildiniz!".

**İlk latın kökənli Dövlət katibi...**

ABŞ prezidenti Trampın Dövlət Katibliyinə namizədliyini irəli sürdüyü keçmiş senator Marko Rubio Senatda keçirilən səsvermədə Trampın kabinetinin ilk naziri olaraq təsdiqlənib - kubalı mühacir ailəsinin övladı Rubio ABŞ tarixində ilk latın kökənli dövlət katibi olub.

*Pərviz SADAYOĞLU*

# Sərxoş mühafizəçi Şəhidlər Xiyabanında

Hüzn günlərində belə siyasi dividend qazanmaq üçün fürsət kimi istifadə edən AXCP sədri Əli Kərimli bu dəfə də adətinə "xilaf" çıxmadı. 20 Yanvar Ümumxalq Hüzn günü qarşısına bir neçə kameralı "müşayiətçi" salan Kərimli başının dəstəsi ilə deyə - gülə azadlıq mücahidi olan şəhidlərimizi "ziyarət etməyə" gəlmişdi. Yayılan videogörüntüdə həm onun, həm də Gültəkin Hacıbəylinin davamlı güldükləri diqqətdən yayınmadı. Bu gülüşlərin səbəbi bəlli olmasa da, şəhidlərə verilən qiymət tam bəlli idi...





Ən önəmli isə Əli Kərimlinin arxasınca gedən "cangüdəni"nin (Kərimli Şəhidlər Xiyabanına da cangüdənlə gəlir) içkili olması idi - bəli, bu məqam da diqqətdən yayınmadı. Videogörüntülərdə aydın olur ki, bu şəxs tələm-tələsik, hətta qoruduğu şəxs və partiya sədrinin başının üstündən boylanaraq tələsik su butulkasını acgözlüklə başına çəkir - demək ki, həmin şəxs içkili halda Şəhidlər Xiyabanına gəlib. Onun sonradan gün eynəyini cibindən çıxararaq gözünə taxması da diqqəti cəlb edir - içkili olduğunun meydana çıxmaması üçün gözlərini gizlətmək məcburiyyətində qalır. Yoxsa, videoçəkilişin aparıldığını görüb yolun ortasında cibindən gün eynəyi çıxarıb tələsik taxmazdı.

Əli Kərimlinin Azərbaycan xalqına, Azərbaycanın azadlığı uğrunda canından keçmiş şəhidlərimizə "hörməti" budur - yanına salıb gətirdiyi şəxsin içkili olması onun üçün fərq yaratmır. Əsas odur ki, Kərimlinin yan-yörəsi "qələbəlik" görünsün. Bu şəxs özünün cılız siyasi ambisiyalarına o qədər aludə olub ki, artıq ictimai rəy və ya xalqın qınağı da onun üçün heç bir əhəmiyyət kəsb etmir - əsas odur ki, Kərimlini maliyyələşdirənlər ondan razı qalsın.

*Mənsur*

# Tramp radikal və korrupsioner quruluşu hədəfə aldı...

## Yeni Prezident köhnə administrasiyanı ifşa etdi



Yanvarın 20-də ABŞ-ın 47-ci Prezidenti Donald Tramp andiçmə mərasimində bir sıra məsələlərə toxunmaqla yanaşı, əvvəlki administrasiyanın - Bayden komandasının fəaliyyətini ifşa etdi. Yeni Prezident əvvəlki komandanın ölkədə formalaşdırdığı radikal və korrupsioner quruluşu pisləyərək hökumətin etimad böhranı ilə üzləşdiyini bildirib. Tramp Bayden hökumətinin dövlətin əsas təsisatlarına etinasızlıq göstərərək vətəndaşlardan güc və sərvət qoparmaqda ittiham edib. Bildirib ki, illərdir cəmiyyətimizin sütunları sınıb və yaranan tamamilə bərbad vəziyyətdə radikal və korrupsioner quruluş vətəndaşlarımızdan hakimiyyət və sərvət qoparıb. O, hökumətin daxili məsələləri idarə edə bilməməsi və xaricdəki bir sıra uğursuzluqları kimi qəbul etdiyi məsələlərə diqqət çəkib.

Bəli, göründüyü kimi, ABŞ-ın yeni Prezidenti açıq dillə ölkədəki vəziyyətin ağır olduğunu bildirir. Ümumiyyətlə, son dövrlərdə ABŞ daxilində cərəyan edən proseslər siyasi mütəxəssislər tərəfindən birmənalı qarşılanmır - ekstremizmin yeni hallarının daha da inkişaf etməsi bu ölkədə həm daxili qarşıdurmanı gücləndirir, həm də Vaşinqtonun xarici siyasət kursuna təsir edir. Nəzərə alsaq ki, prosesdə korrupsiya elementləri də açıq şəkildə özünü göstərməkdədir, bu, Trampın da ifadə etdiyi kimi ABŞ siyasi elitasının çöküşünü rəsmiləşdirən fakta çevrilir. Məsələ ilə bağlı fikirlərini "Yeni Azərbaycan"a bölüşən politoloq Yeganə Hacıyeva bildirib ki, ABŞ-da daxili siyasi vəziyyət düşünüldüyü qədər sabit zəmində deyil. Belə ki, ABŞ dünyada ekstremizmin yeni formalarının tüğyan etdyi ölkələrdən biri, bəlkə də birincilərdəndir: "Bu məsələ ilə bağlı hələ bir neçə il öncə mühüm araşdırmalar aparmışam və həmin araşdırmada yeni ekstremizmin ABŞ-a təsirləri ilə bağlı ciddi göstəricilər yer alır. Qeyd edim ki, ekstremizm ən yeni tarixdə sima dəyişib. Dünya isə daha çox köhnə və ya ənənəvi ekstremizmlə mübarizəyə kökləndiyi üçün bu yeni hallar bəzən diqqətdən yayınır. Başqa sözlə, bütün dünyada ənənəvi ekstremizin fonunda daxili ekstremizm o qədər də nəzərə çarpmır. Bu gün üçün isə dünyada aktual olan ekstremizmin yeni formaları haqda danışarkən birinci növbədə, ABŞ-ın yeni prezidenti Donald Trampın inauqurasiya mərasimindən sonra xalqa müraciətində ifadə etdiyi "bürokratiya ekstremizmi"nə toxunmaq lazımdır. Ümumiyyətlə, yeni ekstremizmin bir çox formaları mövcuddur ki, onlar ənənəvi ekstremizmdən daha dağıdıcı və ya təsirli sayılır. Məsələn, ABŞ cəmiyyətində də dəfələrlə açıq şəkildə biruzə verilən və fikir ayrılığı üzərindən doğan ekstremizm bu ölkədə bir çox hallarda ciddi riskləri aydın şəkildə təsvir edir. Bu formanın ən dəhşətli tərəflərindən biri də budur ki, həm də silahlı ekstremizmdir. Bunun bariz nümunəsi kimi 2021-ci ilin yanvar ayında baş verən hadisələri göstərmək olar - bütün ölkə boyu bir milyon etirazçı insanların bir qismi həm də əli silahlı olan insanlar idilər. Bunun ayrı-ayrılıqda komponentlərinə nəzər saldıqda, isə ştatlar üzərindən ektremist qrupların mövcud olduğunu görmək olar. Həmin ekstremist qruplar mövsimi olaraq müxtəlif dairələrə xidmət edən hərbi qruplardır. Bəzi ştatlarda Birləşmiş Ştatların regional adminsitrasiyaları bu silahlı qruplarla hesablaşır, onların gücünü qəbul edir və s. Bəzi hallarda isə ştat rəhbərləri məcburi şəkildə onlarla razılaşır, hesablaşır. Bu deyərdim ki, dünyada olan silahlı separatizm ekstremizmindən belə daha təhlükəlidir".

Politoloq qeyd edib ki, ABŞ üçün xarakterik olan bir digər yeni ekstremizm forması "bürokratik ekstremizm"dir. "ABŞ-





dakı bürokratik ekstremizmdən isə sadəcə ABŞ özü deyil, həm də başqa ölkələr əziyyət çəkir. Baydenin hakimiyyəti dövründə biz bunu aktiv şəkildə müşahidə etdik. Bürokratik ekstremizm olmayan proseslər, psevdoreallıqlar üzərindən bir sıra ölkələrə qarşı təşəbbüslər başladır. Məsələn, erməni lobbisinin ideoloji nüvəsini təşkil edən tezislər üzərindən ABŞ Konqresində Azərbaycana qarşı dinləmələr təşkil edilir, Konqresə qanunverici aktlar təqdim olunur və s. Təəssüf ki, bu proseslər hələ də yekunlaşmayıb və davam etməkdədir. Burada lobbi pulları adı altında korrupsiya elementləri də istisna edilmir ki, Tramp öz çıxışında məhz bu məqama diqqət çəkirdi", -deyən Y.Hacıyeva əlavə edib ki, üçüncüsü isə bütün dünyaya ABŞ-dan yayılan və Donald Trampın da qarşısını almağa çalışdığı cinslərarası ekstıremizm - gender ekstremizmidir: "ABŞ-da bu ekstremizm o səviyyədə inkişaf edib ki, mən onlardan birini "femibolşevizm" adlandırmışam. Təəssüfləndirici haldır ki, Baydenin dövründə transgender siyasəti o qədər fəal şəkildə təbliğ edilirdi ki, hətta dövlət səviyyəsində dəstəklənirdi. Bu nəticə etibarı ilə ABŞ cəmiyyətində açıq parçalanmaya gətirib çıxarıb. Bütün sahələrdə bu parçalanma müşahidə olunmaqdadır. Hətta bu məsələ orduya qədər yol tapmışdı. İlkin mərhələ olaraq hazırda ABŞ-da cərəyan edən ekstremizmin ümumi mənzərəsi bundan ibarətdir".

### Yeganə Hacıyeva: ABŞ-dakı bürokratik ekstremizmdən sadəcə, ABŞ özü deyil, həm də başqa ölkələr əziyyət çəkir

*SADİQ*

# Paris Olimpiadasında medal rəzaləti

**Ötən ilin yayında Fransanın paytaxtında baş tutan 33-cü Yay Olimpiya Oyunlarının başa çatmasından aylar ötsə də, dünyanın bir nömrəli idman bayramı ilə bağlı, təəssüf ki, kədərli olan müzakirələr hələ də bitməyib. Bu günlərdə Makron iqtidarının Olimpiada rəzaləti ilə bağlı faktlar yenidən gündəmi zəbt edib. Söhbət idmançıların təltif olunduqları medalların keyfiyyətindən, daha doğrusu, keyfiyyətsizliyindən gedir.**

## Bahalı büdcə ilə yarıtmaz təşkilatçılıq




Parisdə keçirilən 33-cü Yay Olimpiya Oyunlarının büdcəsi 11 milyard avroya bərabərdir. Oyunları keçirmək üçün Fransanın namizədliyi irəli sürüldükdə bu məbləğ 6,2 milyard avro idi. Planlaşdırılmayan xərclərin dəyəri iki dəfəyə qədər artıq olub. Dövlət maliyyələşdirməsinin payı elan edilən 2,3 milyard avrodan 4,6 milyard avroya yüksəlib. Paris Olimpiadasının açılış mərasiminə 122 milyon avro vəsait xərclənib.

Göründüyü kimi, Makronun komandasının Olimpiada büdcəsi kifayət qədər iddialı olub. Ancaq buna baxmayaraq, ortaya tamamilə zay məhsul çıxarılıb. Yelisey Sarayının "Paris 2024"-ün qara üzünü gizlətməyə çalışmasına rəğmən, çatışmazlıqlar həddindən artıq çox olub. Açılış ərəfəsində artıq hamıya bəlli idi ki, Olimpiada ilə bağlı təhlükəsizlik tədbirləri lazımi səviyyədə deyil. Parisə Fransanın regionlarından və Aİ ölkələrindən çoxsaylı polis qüvvələri cəlb edilməsinə baxmayaraq, şəhərdə terror risklərinin kifayət qədər böyük olması ciddi narahatlıq doğururdu. İdmançılar Olimpiya kəndindəki dözülməz vəziyyətdən, o cümlədən də qida çatışmazlığından şikayət edirdilər. "Paris-2024" Olimpiya kəndinə gələn atletlər karton çarpayıları tənqid obyektinə çevirmişdilər. Ancaq Olimpiya kəndində təkcə çarpayılar gülüş obyekti olmayıb. Otaqlarda televizorların olmaması da idmançıları məyus edib. Həmçinin müxtəlif ölkələrdən gəlmiş idmançılar "TikTok" sosial şəbəkəsində yeməklərin ədviyyatsız, bir növ dadsız olmasına təəssüflənibələr. İdmançılar paltarlarının yuyulmasında da problemlərlə üzləşdiklərini bildirirdilər.

Planetin ən böyük idman yarışmasının rəsmi açılış mərasimi ilk dəfə stadiondan kənarda - Sena çayının ətrafında baş tutub. Lakin burada da Yelisey Sarayının dünya idman ictimaiyyətinə açıq-aşkar hörmətsizliyi, Sena çayının ekoloji təmizliyi ilə bağlı yaydığı yalan məlumatlarla beynəlxalq ictimaiyyəti aldatdığı ortaya çıxdı.

Açılış mərasimində nümayiş etdirlən bir sıra səhnələr Yelisey Sarayının Olimpiada rəzalətinin pik nöqtəsi sayıla bilər. Ümumi qənaət belədir ki, Parisdə baş tutan açılış mərasimi bütövlükdə, Olimpiya tarixində bir rüsvayçılıqdır.

## 100-dən çox medal geri qaytarılıb

"Paris-2024" başlamazdan öncə düzənlənən medalların təmtəraqlı təqdimat mərasimi yaddaşlardan silinməyib. Yerli Təşkilat Komitəsinin mənzil-qərargahında baş tutan tədbirdə qurumun sədri Toni Estanqe medalların böyük zəhmət bahasına və çətinliklə başa gəldiyini açıqlamışdı. Sitat: "Qızıl, gümüş və bürünc medalların Eyfel qülləsinin qiymətli metalı ilə eyni qarışıqda olması üçün nəhəng iş görülüb".

Bu təmtəraqlı mərasimdən az sonra bəlli oldu ki, əslində, nəhəng yox, zay iş görülüb. Əks halda 100-dən çox medal keyfiyyətini itirdiyinə görə geri qaytarılmazdı. Xüsusilə də "bürünclər"in daha çox zədələnməyə və paslanmaya məruz qaldığı bildirilir. Əslində, medalların keyfiyyətsizliyinə görə ilk narazılıqlar Olimpiadanın davam etdiyi günlərdə ifadə olunurdu. ABŞ skeytbordçusu Nayca İmani Hyustonun qazandığı bürünc medalın keyfiyyətsiz olması ilə bağlı paylaşdığı video həmin vaxt xeyli müzakirələr yaratmışdı. Sonradan Fransa üzgüçüləri Kleman Sekki ilə Yohann Ndoy Bruar da medallardan narazıların sıralarına qoşuldular. Yohann Ndoy Bruar ölkəsinin yarıtmaz təşkilatçılığını rişxənd obyektinə çevirməkdən belə çəkinmədi. Belə ki, o, "Paris 2024" əvəzinə, "Paris 1924" yazaraq təşkilatçıları ələ saldı. Kleman Sekki isə medalları "timsah dərisi"nə bənzətmişdi...

Oxşar problemlə Azərbaycan millisinin üzvləri də üzləşiblər. Belə ki, "Paris-2024"-ün gümüş mükafatçısı, taekvondoçu Qaşım Maqomedov (58 kq) və yunan-Roma güləşi üzrə üçüncü olan Həsrət Cəfərov (67 kq) aldıqları medalların keyfiyyətini itirdiyindən şikayətləniblər. Q.Maqomedov layiq görüldüyü medalla qürur duyduğunu bildirsə də, pis keyfiyyətlə qarşılaşmasından məyusluğunu gizlətməyib. H.Cəfərov isə medalın üzərindəki müəyyən hissənin qopduğunu diqqətə çatdırıb. Eyni zamanda, Olimpiya çempionları Hidayət Heydərovun, Zelim Kotsoyevin və digərlərinin də medallarının keyfiyyətini itirdiyi bildirilir.

Kütləvi etirazlardan sonra Beynəlxalq Olimpiya Komitəsi məsələyə münasibət bildirib. Qurum zədələnmiş bütün medalların istehsalçı "Monnaie de Paris" tərəfindən sistemli şəkildə əvəzlənəcəyini, prosesə yaxın həftələrdə başlanılacağını açıqlayıb. Öz növbəsində Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) də komandamızın layiq görüldüyü 7 medalın hər birini araşdırmağa qərar verib. MOK araşdırmaları başa çatdırdıqdan sonra Beynəlxalq Olimpiya Komitəsinə müraciət ünvanlamağı planlaşdırır.

Görünən odur ki, Fransa medalların hazırlanmasında açıq-aşkar saxtakarlığa yol verib. 100-dən çox medalın məhz aşağı keyfiyyətə görə geri qaytarılması digər qənaətləri istisna edir. Onu da əlavə edək ki, əvvəlki olimpiadalarda medalların keyfiyyətindən kütləvi narazılıq heç vaxt qeydə alınmayıb. Beləliklə, Makron Olimpiada sınağından da pis lider kimi çıxıb...

***MÜBARİZ***

# Fransa Ermənistanı silahlandırmaqla...

## İrəvan Parisin regional planlarının alətinə çevrilir

Dünyada yeni siyasi-iqtisadi nizamın formalaşdığı dövrdə Fransa özünün Cənubi Qafqaza yönəlik destruktiv siyasətindən əl çəkmək istəmir. Regionda sülhlə bağlı impulsların gücləndiyi bir zamanda, əbədi sabitliyi təmin edəcək sənədin son ştrixlərinin razılaşdırıldığı bir dövrdə Paris özünün imperialist ənənəsinə sadiq qalaraq regionla bağlı məkrli planlarını davam etdirir. Başqa sözlə, Fransa son iki ildə Ermənistanın müxtəlif yollarla silahlandırılmasını təmin edən təhlükəli siyasətinə son vermir - bu ölkənin Ermənistanın hərbi-müdafiə və təhlükəsizliyində "rolunu" artırması da bunu deməyə əsas verir.

Dünyada işləri "düz getməyən", onilliklər boyu mümstəmləkəçilik siyasəti yürütdüyü Qərbi - Mərkəzi Afrikadan sıxışdırılıb çıxarılan Fransa özünün yeni siyasi oyunlarını Ermənistan üzərindən qurmağa çalışır - Ermənistanı öz geosiyasi poliqonuna çevirmək istəyir. Rəsmi Paris bu ölkədə təsir imkanlarını artırmağın yolunu ilkin olaraq İrəvanı silahlandırmaqda görür. Bununla bağlı real addımlar isə bütün faktlarla ortadadır - Fransa Ermənistanı həm öz şirkətlərinin, həm də Hindistanla birgə istehsal etdiyi silah-sursatla təmin edir.

Yeri gəlmişkən, yayılan son məlumatlara görə, İrəvan Hindistan və Fransanın birgə istehsal etdiyi müdafiə sistemi "Trajan" haubitsalarını almağa hazırlaşır. Çatdırılmanın yaxın aylarda həyata keçiriləcəyi iddia olunur. Xatırladaq ki, bundan əvvəl, Ermənistan Hindistandan "Pinaka" reaktiv yaylım atəşi, "Akaş" hava hücumundan müdafiə sistemləri, 155 mm-lik "MArG" və ATAGS daşınan haubitsaları və digər müxtəlif silah növləri alıb. Bu istiqamətdə atılan addımlarda isə vurğulandığı kimi, Hindistan və Fransa xüsusi aktivlik göstərir - son dövrlərdə Yunanıstanın da prosesə cəlb edildiyi müşahidə olunur.

**Bu ilk hal deyil...**

Vurğulandığı kimi, Fransanın Cənubi Qafqazda yaranacaq sabitliyə qarşı təhdidi ilk hal deyil. 2024-ci ilin iyunun 17-də Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı iki tərəf arasında "CAESAR" özüyeriyən artilleriya sistemlərinin alınmasına dair müqavilə imzalanmışdı. Bundan başqa, Fransadan Ermənistana 3 ədəd GM200 radar sistemi, 50 ədəd "Bastion" tipli zirehli texnika və "Mistral" qısa mənzilli hava hücumundan müdafiə sistemlərinin tədarükü ilə bağlı razılıq əldə olunmuşdu. İmzalanma mərasimindən sonra S.Papikyanla birgə mətbuat konfransı keçirən Fransanın müdafiə naziri Sebastyan Lekornu bildirmişdi ki, Fransa lazım gələrsə, Ermənistanı yaxın, orta və uzaqmənzilli hava hücumundan müdafiə sistemləri ilə də təmin edəcək. Güman ki, növbəti aylarda da Fransanın həm özü, həm də Hindistan vasitəsilə Ermənistanı daha yeni silahlarla silahlandırmasına şahidi olacağıq.

**Sülh Fransanın qorxulu yuxusuna çevrilib**

Şübhə oluna bilməz ki, Fransanın Ermənistanı silahdırmaqda başlıca məqsədi Cənubi Qafqazda əbədi və dayanıqlı sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizliyin bərqərar olunmasına əngəl olmaq, Ermənistanı Azərbaycanla növbəti qarşıdurmaya hazırlmaq və regionu münaqişə içərisində saxlamaqdır. Tarixən işğalçılıq və müstəmləkəçilik siyasətinə əsaslanan Fransa üçün bu adi bir hala çevrilib. Qeyd edildiyi kimi, Fransa bu taktikanı Afrika və Okeaniya regionunda da yüzilliklər boyu tətbiq edib. Fransa bu iki regionda öz geosiyasi mövqeyini qorumaq və sömürgə siyasətini davam etdirmək üçün xalqlararası münaqişələrdən məharətlə istifadə edib. Bu gün isə eyni taktika Cənubi Qafqaza qarşı tətbiq edilir. Paris hesab edir ki, bölgədə münaqihşənin davam etməsi Fransanın regiona müdaxiləsinə yol aça bilər.



**Makronun Ermənistan "arzuları"...**

Makron hakimiyyətinin Ermənistana münasibətdə siyasi xətti müəyyən geosiyasi hədəflərə istiqamətlənib. Makronun hədəfləri Fransanın Ermənistanda hərbi-siyasi təsir imkanlarını artırmaq, Ermənistanın silah arsenalında Fransa istehsalı silahların sayını çoxaltmaq, beləliklə, İrəvanı təhlükəsizlik predmeti üzrə tam şəkildə özündən asılı vəziyyətə salmaqdır. Belə demək mümkünsə, Fransa Ermənistan növbəti koloniyasına çevirməyə hazırlaşır.

Makron, həmçinin ABŞ ilə bağlanan strateji tərəfdaşlıq sazişindən narahatdır. ABŞ-ın Ermənistanla əlaqələrinin artması Fransanın prosesdən kənarlaşması demək olacaq və bu da Parisin bölgədəyi ümidlərinin üzərindən xətt çəkir. Halbuki Ermənistanda fəaliyyət göstərən Avropa İttifaqının müşahidə missiyası məhz Fransanın regionda geosiyasi maraqlarına xidmət edirdi. İndiki dövrdə ABŞ-ın önə çıxması Fransanı yenə də ikinci plana keçirir, bəlkə də tam şəkildə izolyasiya edir.

**Ermənistan təhdid yaratmağa davam edərsə...**

Amma Parisin Ermənistanı silahlandırmaqla qurduğu xəyallar iflasa məhkumdur - Ermənistan hakimiyyəti və ölkə daxilindəki revanşist dairələr Fransanın təlimatına əsasən bölgədə hər hansı təxribata davamlı şəkildə əl atacağı təqdirdə Azərbaycan bunu sadəcə müşahidə etməyəcək - adevkat tədbirlər görüləcək. Prezident İlham Əliyev öz müsahibələrində və çıxışlarında bu barədə Ermənistana və onun havadarlarına dəfələrlə xəbərdarlıq edib. Prezident qəti şəkildə bəyan edib ki, Ermənistanın məqsədyönlü şəkildə sürətlə silahlanması və təxribatlara baş vurması Azərbaycanın zəruri adevkat tədbirlər görməsinə gətirib çıxara bilər.

***Yunis Abdullayev***

# Sükuta sığınmaq, zənciri qırmaq

## Kamilo Xose Selanın "Paskual Duartenin ailəsi" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Bu cinayətinə görə Paskual Duarte üç il türmədə yatır, həbsxanada nümunəvi davranışına görə onu azadlığa tez buraxırlar. Doğmalarının heç gözləmədiyi bir vaxtda bəxtsiz qəhrəman evə qayıdır. Anası qapını oğlunun üzünə bir xeyli sorğu-sualdan sonra çətinliklə açır. Rosario yəqin ehtiyac ucbatından yenidən (bu səfər Paskualın taytuşlarından biriylə) Almendralexoya köçüb, ancaq ata evinə tez-tez gəlib anasını yoluxur. Qardaşının həbsdən buraxıldığını eşidəndə də özünü tezcə kəndə yetirir. Bacı-qardaş ordan-burdan danışandan sonra Rosario deyir ki, Paskuala qız tapıb. Esperansanın yaşı otuzdan bir az artıq olar, suyuşirin qızdır, Paskualı hələ evlənməmişdən sevsə də, istəyini büruzə verməyib: "Onu bərk-bərk, qızğıncasına, başqa bir qadına duymadığım ehtiramla öpdüm, o qədər çox öpdüm ki, dodaqlarımı ayıranda ona qarşı qəlbimdə ən vəfalı bir sevgi doğulmağa macal tapmışdı".

Beləliklə, Paskual bacısının araçılığıyla ikinci dəfə evlənir. Anasının gəlindən zəhləsi gedir, üstəlik də bunu gizlətməyə çalışmır. Paskual arvadını da götürüb La Korunyaya, Madridə, ya da bir az yaxına - əyalətin mərkəzinə köçmək barədə düşünür, ancaq qorxaqlıqdanmı, qətiyyətsizlikdənmi, ya taleyin hökmündənmi hər dəfə bu işi sonraya saxlayır: "Hətta o qədər sonraya saxladım ki, nəhayət, yola çıxanda özümdən və xatirələrimdən savayı heç kimdən torpaqla ayrılmağıma lüzum qalmadı... Öz günahımdan gizlənməyə yalnız torpaq azlıq eləyirdi, torpaq o qədər böyük, o qədər geniş deyildi ki, yaşayış yerimi dəyişməklə vicdanımın fəryadını eşitməyəm... Mən torpaqla öz kölgəmdən, adımdan, xatirələrimdən, hətta öz bədənimdən daldalanmaq istəyirdim; kölgəsiz, xatirəsiz, adsız, bədənsiz məndən çoxmu şey qalacaqdı? Başqa hallarda həyatdan qəfil silinmək, yoxa çıxmaq yaxşıdır, yer ayrıla yerə girəsən, tüstü kimi havaya qarışasan. Belə olmur, olsaydı, mələyə çevrilərdik, cinayətlərin, günahların girdabından qurtulardıq, bu xarabı çıxıb ağırlaşmış ət yükündən azad olardıq; sizi inandırıram, əgər kimsə öz dəyərsiz canının üstündə əsə-əsə qəlbimizə toxunub onu daim yadımıza salmağa çalışmasaydı, biz onu heç vəchlə xatırlamazdıq. Heç nə iyrənc keçmişin cüzamı ilə çürümüş vicdan qədər, şərdən vaxtında ayrılmayan peşmançılıq xorası qədər pis qoxumur, biz ümidləri çiçəkləməyə macal tapmamış məhv olanların zibilliyində iylənirik, bizim miskin həyatımız - özü də çoxdan - gör bir nəyə çevrilib!"

***

Paskual Duartenin cinayət silsiləsi onun taleyinin səbəb-nəticə qanunuyla hörülmüş zənciridir. Könülsüz qatil bu həyata, bu dünyaya həmin o möhkəm, qırılmaz zəncirlə hörüklənib. İnsan əgər yaşayırsa, o zənciri boynundan tam atmağı mümkün deyil, onu sadəcə incəltmək, lap uzağı bir tük qədər naziltmək olar. Ehtirasları, qorxularıyla həyata nə qədər möhkəm, nə qədər bərk bağlanırsa, insanın zəncirləri də bir o qədər yoğunlayıb möhkəmlənir. Zahirən belə görünür ki, bəşər övladı yalnız ölməklə zəncirini qıra bilər, ancaq bu da illüziyadır, çünki fiziki ölüm haq deyil, təbiət hadisəsidir; ölümün haqq işi sayılması üçün onun ruhun materiya üzərində qələbəsi nəticəsində, böyük bir kosmik savaşın təntənəli sonluğu kimi başa gəlməsi lazımdır.

Bu savaşdan xəbərsiz Paskual isə zəncirini anasını öldürməklə qırmağa çalışır: "Silaha əl atmağı qərara aldığım gün o qədər dilxor, onu al qana boyamağın xeyirliyə olmayacağına o qədər əmin idim ki, anamın öləcəyi fikrinin özü belə zərrə qədər də məni tələşa salmırdı. Bu, sadəcə, alın yazısı idi, olacağa çarə yoxdu, mən vur-tut icraçıydım, hətta istəsəm də bundan qaça bilməzdim, çünki fikrimi dəyişmək, baş verməməsi üçün əlimin belə kəsilməsinə razı olduğum hadisənin baş tutmaması mənə mümkünsüz görünürdü; onda isə buğda səpdiyi zəmisinin qayğısına qalan kəndçi kimi hər şeyi yerli-yerində ölçüb biçmişdim".

Övladlarının əzablarına laqeyd, şikəst oğlunun, cavan gəlininin, körpə nəvəsinin vaxtsız ölümünə acımayan anasına əl qaldırmaqla Paskual öz mənbəyinə, insan tələsinə, fələyin tale istehsal eləyən dəzgahına hücum çəkir, onu dünyaya gətirən səbəbi aradan qaldırır, bununla da guya öz keçmişiylə bağını qırır. Arvadını öldürəndə isə o, bir halqası olduğu həmin zəncirin nəticə hissəsindən özünü ayırmışdı, Lolanın bətnindən cücərib gələcəyə kök atası pöhrələrini bəri başdan budamışdı.

***

Beləliklə, edam ərəfəsində Paskual Duartenin nə keçmişi, nə də gələcəyi var. O, zəncirindən qopmuş gərəksiz tək halqadır. Kor bələdçiləri (yəni qorxusu, xofu, şübhəsi, nifrəti) yanlış istiqamət verdiyindən onun azadlıq yolu dalana dirənir, bu səbəbdən ölümü Kamünün Mersosu kimi ləyaqətlə, mərdanə, soyuqqanlı qarşılamır. Onu edam kürsüsünə sürüyə-sürüyə, bağırda-bağırda çıxarırlar. Bu səhnəni stoiklərin tale-qismət haqqında dediklərinə illüstrasiya kimi də təsəvvürə gətirmək olar: stoya təlimi deyir ki, sən adına yazılmış, boyuna biçilmiş tale yolunu onsuz da getməlisən; ağlın varsa, taleyinə təslim olub könüllü gedəcəksən, yox, işdir, boyun qaçırmaq, qismətdən yayınmaq istəsən, döyə-döyə aparacaqlar...

Əgər Paskual Duartenin Epikür fəlsəfəsindən, Budda təlimindən xəbəri olsaydı, anadangəlmə qorxularına, beyninin dərinliyinə işləmiş travmalarına üstün gəlməyin, onları qatlayıb pyedestal kimi taleyinin ayaqları altına qoymağın, çiynindən basan dərdi əxlaqına çevirməyin doğru üsullarına da yiyələnə bilərdi. Dünyadan, həyatdan, tale-qismətdən qaçışı mükəmməl olmayanda insan özünü dünyaya daha möhkəm zəncirlə bağlamış olur. Cəllad baltası torpaqla bağları qırmır, tam tərsinə, insanı torpağa həmişəlik bağlayır.



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Musiqinin özü bir tərbiyədir



Ölkəmizi dünyanın müxtəlif arenalarında təmsil edən sənətkarlar var ki, musiqi mədəniyyətimizi yüksək səviyyədə təbliğ edirlər. Belə sənətkarlardan biri də, əməkdar artist Aqşin Abdullayevdir. Yaxın günlərdə Heydər Əliyev sarayında solo konserti baş tutacaq ifaçı ilə müsahibəni təqdim edirik.

**- Aqşin bəy, bir çox beynəlxalq müsabiqələrin laureatısınız, bu, həyatınızda hansısa dəyişikliklərə yol açıb?**

- Əlbətdə ki, bunlar gələcəyə doğru yeni uğurlar üçün yol deməkdir. Hazırkı pilləyə çatmaq üçün uzun yol qət etmişəm. Burada milli televiziya və xarici media müsabiqələrinin, qastrol səfərlərimizin də rolu böyükdür.

**- Sənətə gəldiyiniz ilk vaxtlarda, düşüncələriniz necə idi, bu yolun çətinliyi sizi qorxutmurdu ki?**

- Çətinlikdən heç vaxt qorxmamışam. Əgər bu sənəti seçmişəmsə, demək böyük istək və arzuyla gəlmişəm.

**- Hazırkı Azərbaycan musiqisinin sizi qane edən və etməyən tərəfləri hansılardır?**

- Musiqinin qane etməyən tərəfi yoxdur, lakin təbliğ olunan musiqidən danışırıqsa. qeyd olunası bəzi məqamlar var. Bu gün insanlar sanki bayağı musiqiyə daha çox üstünlük verməkdədirlər. Bunun ən böyük günahı isə media və televiziyaların üzərinə düşür. Eyni zamanda, cəmiyyətin, insanların da günahı böyükdür, çünki hər bir insan ailəsinə və övladlarına musiqi mədəniyyətini aşılamalı, musiqi tərbiyəsini verməlidir. Çünkin musiqinin özü bir tərbiyədir.

**- Bu bayağılığın qarşısını necə almaq olar?**

- İnsanlar çoxlu kitab oxumalı, zövqlü musiqilər dinləməli, eyni zamanda, mədəniyyət axtarışında olmalı, teatr və tamaşalara getməlidirlər. Təəssüf ki, əvvəllər teatrlara növbələr var idisə, indi bunu görmürük.

**- Gündəmi zəbt edən xarici ritmlərdən ibarət trend musiqilər bizim musiqimizə hansı zərərləri vurur?**

- Mən bunu çox normal qarşılayıram, bayağılıqdan kənar ritmlərə yaxşı baxıram. Bu günlər aşıq musiqisindən opera yaranıbsa, cazla muğamın sintezini izləyicilər daha çox qəbul edirsə, bunu xoş qarşılamaq lazımdır. Lakin onun da ən yaxşısını seçməliyik. Nəticədə insanlar həmin musiqilərdən zövq almalı, milli musiqiyə xarici çalarlar qataraq normal sənət əsəri olduğunu bilməlidirlər.

**- İstedad və zəhmət. İndiki müğənnilərdə bunlardan hansı zəifdir?**

- Ölkəmizdə çox istedadlı insanlar yetişir. Sadəcə, təkcə Qarabağ zonasından çıxanları nəzərə alsaq, sanki böyük konservatoriyanın yetirmələridirlər. Sadəcə, heç kəs zəhmət çəkmək istəmir, daha asan şəkildə pul qazanmaq istəyirlər.

**- Necə hesab edirsiniz, bəlkə maddi vəziyyət onlara bu sənətlə məşğul olmağa imkan vermir ?**

- Azərbaycan Filarmoniyasında, Opera Teatrında işləyən onlarla adam tanıyıram ki, vəziyyətləri elə də ürəkaçan səviyyədə deyil. Lakin onlar öz sənətinə sadiq qalaraq maddiyəti əsas hesab etmirlər. Onlar yalnız keyfiyyətli musiqi yaratmağı və təqdim etməyi düşünürlər. Mən bayağılığa üstünlük versəydim, yaranmış böyük şanslarım, şöhrətim və s. ola bilərdi. Mən bunun üçün sənəti seçməmişəm, öz sənətimi daha yaxşı təbliğ etmək üçün bu yoldayam.

**- Mahnılarınız içində sizi ən çox qane edən hansı ifanızdır?**

- İfa etdiyim hər bir mahnını özümü qane etdiyi üçün oxumuşam. "Sual" mahnısı isə mənim üçün xüsusi yer tutur. Hesab edirəm ki, bu mahnı daha çox düşündürücüdür və insanlara nəsə çatdıra bilirəm. Ümumiyyətlə, mənim üçün ciddi mövzulara əsaslanan mahnılar daha çox üstünlük təşkil edir.

**- Pedaqoji fəalliyyətlə məşğulsunuzmu?**

- Pedoqoji fəaliyyətlə demək olar ki, məşğul deyiləm. Sadəcə, profesional şəkildə öz fəaliyyətimlə məşğulam.

**- Bəs gələcəkdə bu barədə düşünürsünüzmü?**

- Qətiyyən düşünmürəm. Həm vaxt baxmından uyğun görmürəm. Qeyd edim ki, özümü daha çox ifaçı kimi görürəm. Hər ifaçının yaxşı müəllim ola bilmədiyi kimi, hər müəllim də yaxşı ifaçı ola bilmir. Elə müəllim tanıyıram ki, tələbələri ondan daha savadlıdır. Elə müəllim də var ki, çox gözəl oxuyur lakin bildiklərini tələbələrə çatdıra bilmir.

**- Bir müğənni və ailə başçısı olaraq özünüzü necə xarakterizə edirdisiniz?**

- Mən həm müğənni, həm də ailə başçısı kimi özümü mükəmməl sayıram. Mənim üçün ümumilikdə üç dəyər var. Valideynlər, ailəm və işim. Bu üç dəyər ömür boyu dəyişilməz qalacaq.

**- Yaxın günlərdə konsertiniz olacaq, tamaşaçılar hansı yenilikləri gözləyirlər? Duetlər olacaqmı?**

- Fevralın 1-də Heydər Əliyev Sarayında solo-konsertim baş tutacaq. Yeri gəlmişkən, bu vaxta kimi bir çox ölkələrdə Azərbaycanı təmsil etmişəm, Vyana, Türkiyə, Rusiya, Qırğızıstan, Cənubi Koreyada çıxışlarım olub, konsertlərin demək olar ki, hamısı Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondu tərəfindən təşkil olunub. Buna görə, dövlətimizə və mədəniyyətimizə böyük dəstək verən Prezident İlham Əliyevə minnətdaram, onlar mənə böyük yol açıblar.

Qarşıdakı konsertə gəlincə, bu, mənim üçün çox böyük məsuliyyət deməkdir, heç bir konsertə bu qədər hazırlaşmamışam, həyəcanlı olmamışam. Bu konsert mənim üçün çox önəmlidir və düşünürəm ki, bura sırf məni sevənlər və dəyər verənlər gələcək. Ona görə də, onlara elə bir musiqi təqdim etməliyəm ki, böyük ruh alaraq, yaxşı təəssüratlarla ayrılsınlar. Hazırda konsertə hazırlıq üçün yüksək məbləğdə pul xərclənir, ancaq bizim məqsədimiz qazanc deyil, məqsədimiz Aqşin Abdullayevin yaradıcılığına layiq bir konsert təşkil etməkdir. Konsertin təşkilində 100 nəfərdən çox insan bizimlə çalışacaq. Burada orkestr musiqiçiləri, həm rəqs ansablı, xor kopellası, pantomimo və s yer alacaq.

***Havar Şəfiyeva***

# Hüquqi dövlət quruculuğunda...

## Vətəndaş cəmiyyətinin rolu əvəzsizdir!



**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır**

Respublikamız müstəqilliyini yenidən bərpa etdikdən sonrakı dövrdə demokratik cəmiyyət quruculuğu sahəsində böyük inkişaf yolu keçib. Aparılan mütərəqqi islahatlar nəticəsində ölkəmizdə vətəndaş cəmiyyəti, eləcə də demokratik və hüquqi dövlət quruculuğu istiqamətində yüksək səviyyədə nailiyyətlər əldə edilib. Bu nailiyyət də əlbəttə ki, xalqımızın, cəmiyyətimizin firavan, xoşbəxt gələcəyi üçün təminat deməkdir.

Milli proqramların hazırlanmasında və həyata keçirilməsində Qeyri-Hökumət Təşkilatlarının yaxından iştirak etməsi ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşmasından xəbər verir. Vətəndaşların sosial, siyasi və mədəni hüquqlarının həyata keçirilməsində daha çox yardımçı olmağa cəhd göstərən QHT-lər məhz elə bu cəhlər sayəsində qanunların aliliyi, şəffaflığın təmin olunması, ictimai nəzarətin həyata keçirilməsi istiqamətində xeyli ixtisaslaşıblar. Artıq QHT-lər Azərbaycanda demokratik quruluşun dəstəklənməsi, dünyəvi dövlətin qurulması, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyinin təmin edilməsi istiqamətində kifayət qədər fəallıq nümayiş etdirirlər.

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən Milli Qeyri-Hökumət Təşkilatları Forumunun rəhbəri Rauf Zeyni bildirib ki, vətəndaş cəmiyyətinin formalaşması onun həyatının və fəaliyyətinin bir çox tərəflərini dövlətsizləşdirməyi nəzərdə tutur. Lakin bu, onun dövlətə ehtiyacı olmadığı mənasını vermir: "Sadəcə dövlət iştirakının qaçılmaz olduğu istiqamətə yönəlməlidir. Xüsusən müdafiə, qanunvericilik, xarici siyasət, büdcə, ekologiya, nəqliyyat və vətəndaşların hüquqlarının müdafiəsi sahələrini buraya aid edə bilərik. Yəni burada dövlət cəmiyyətin xidmətçisi, onun inamlı nümayəndəsi kimi çıxış edir. Qısaca, cəmiyyət dövlət üçün yox, dövlət cəmiyyət üçündür.

Vətəndaş cəmiyyətinin sosial-siyasi sferasını təşkil edən əsas elementlər qismində ailə, ictimai, ictimai-siyasi, siyasi təşkilatlar və hərəkatlar, yaşayış yeri, əmək və başqa kollektivlərlə əlaqədar ictimai özünü idarəetmə orqanları çıxış edir. İctimai fikrin formalaşması və ifadə edilməsi mexanizmlərinin üzə çıxarılması, sosial problemlərin həlli, cəmiyyətin maraqlarını qoruyan və müdafiə edən konstitusiya, müstəqil media, ədalətə söykənən məhkəmə-hüquq sisteminin formalaşması vətəndaş cəmiyyətinin inkişafının təməl prinsipləri hesab olunur. Vətəndaş cəmiyyətinin mənəvi sferasına daxil olan elementlər öz mövqeyini açıq ifadə etmək imkanı, söz və fikir azadlığı, yaradıcı, elmi və digər öz fəaliyyət birliklərinin dövlət və siyasi strukturlardan asılı olmaması və müstəqilliyidir".

R.Zeyni qeyd edib ki, inkişaf etmiş vətəndaş cəmiyyətində dövlətin funksiyaları ümumi inkşaf strategiyasının işlənməsinə yönəlmiş olur: "Nəticədə, bu cəmiyyətin mahiyyəti hakim elitanın, hakimiyyətin ifadəçisi olmaq deyil, hər şeydən əvvəl vətəndaşların maraqlarını, tələbatlarını, azadlığını, istəklərini ifadə etməkdir.

Bütün sadalananların fonunda əminliklə deyə bilərik ki, müasir Azərbaycan Respublikası vətəndaş təşəbbüslərinin dəstəkləndiyi, siyasi plüralizmin əsas götürüldüyü demokratik cəmiyyətin formalaşdığı ölkələr sırasında ilk yerlərdə qərarlaşıb. Təbii ki, bununla ölkədə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşması prosesinin tamamlandığını demək olmaz. Azərbaycanın 33 illik dövlət müstəqilliyinin inkişafına baxsaq, prosesin davamlılığını görə bilərik. Bu proses daim təkmilləşir. Bu modelin yaradılmasında isə mərhum prezident Heydər Əliyevin müstəsna xidmətləri xüsusi vurğulanmalıdır. Məhz özünün unikal siyasi savadı və fenomenal strategiyası ilə Azərbaycanda hüquqi dövlət quruculuğunun sarsılmaz təməlini qoydu".

Forum rəhbərinin sözlərinə görə, Azərbaycan dövləti özünün inkişaf strategiyasında hər zaman bu istiqamətə xüsusi önəm verib, hüquqi dövlət quruculuğuna həssaslıqla yanaşıb: "Ardıcıl şəkildə həyata keçirilən islahatlar isə başlıca olaraq bir məqsədə - vətəndaşların hüquq və azadlıqlarının etibarlı qorunmasına, ədalət mühakiməsinin təmin edilməsinə və təkmilləşdirilməsinə yönəlib.Bu fikrin davamı olaraq demək olar ki, vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı proseslər ölkəmizdə də, bütün dünyada olduğu kimi, eyni məcrada gedir. Azərbaycanda ildən-ilə vətəndaşların sosial fəallığının artması özünü muxtəlif cəmiyyətlərin, birliklərin, sosial hərəkatların yaranması və fəaliyyətini genişləndirməsində göstərir. Bu isə son illər Azərbaycanın beynəlxalq siyasi arenada artan nüfuzu, genişlənən əlaqələri, ölkəmizin regional əhəmiyyətinin yüksəlməsi ilə izah olunmalıdır. Bütün bunların isə eyni məqsədə - ümumxalq mənafeyinin qorunmasına xidmət etdiyi şübhəsizdir".

***Yeganə BAYRAMOVA***

## *İdman*

### Millimizin rəqibində yeni baş məşqçi



Dünya Çempionatının (DÇ) 2026-cı il üzrə seçmə mərhələsində Azərbaycan millisinin rəqibi olan İslandiya yığmasının yeni baş məşqçisi açıqlanıb.

Apasport.az xəbər verir ki, bu barədə İslandiya Futbol Federasiyasının mətbuat xidməti məlumat yayıb. Komandanı Arnar Qunlauqson çalışdıracaq. O, bu vəzifədə Oqe Hareydanı əvəzləyib. Qeyd edək ki, Azərbaycan millisi DÇ-2026-nın seçmə mərhələsində İslandiya ilə sentyabrın 5-də səfərdə, noyabrın 13-də isə Bakıda qarşılaşacaq.

### Türkiyəli basketbolçu NBA tarixinə düşüb



Türkiyə millisinin və ABŞ-ın "Hyuston Rokets" komandasının basketbolçusu Alperən Şəngün tarixə düşüb. 22 yaşlı oyunçu "Detroit Pistons" görüşdə Milli Basketbol Assosiasiyasında (NBA) mininci məhsuldar ötürməsini edib. O, bu həddə çatan ən gənc mərkəz oyunçusu olub. Alperən Şəngün matçı 11 xal, 8 ribaund və 5 məhsuldar ötürmə ilə tamamlayıb.

### Qazaxıstanın qapıçısı "Sabah"da




Misli Premyer Liqası təmsilçilərindən "Sabah" heyətini yeni futbolçu ilə gücləndirib. Qazaxıstan millisinin qapıçısı Stas Pokatilov bundan sonra Masazır təmsilçisinin uğurları üçün çalışacaq. Qeyd edək ki, Pokatilov karyerası ərzində Qazaxıstanın "Akjayık" (2010-2013), "Şaxtyor" (Karaqanda, 2013-2015), "Aktobe" (2015-2016, 2022-2023), "Kayrat" (2016-2022), "Tobol" (2024) və Rusiyanın "Rostov" (2016) komandalarında çıxış edib. 2015-ci ildən Qazaxıstan millisinin üzvü olan Stas, yığmada 28 oyun keçirib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 3827**
**Sifariş: 157**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova